**UOT 316**

# YERDƏYİŞMƏYƏ MƏRUZ QALAN İNSANLARIN CƏMİYYƏTƏ İNTEQRASİYASI

**Tərlan TAĞIYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 17 iyul 2023; çapa qəbul edilmişdir: 23 avqust 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.

Received: 17th of July, 2023; accepted: 23th of August, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər**: *məcburi köçkünlər, yeni məskən, reinteqrasiya, sosial-siyasi, iqtisadi və mənəvi amillər*

## Giriş

Sivilizasiyanın müasir inkişafı şəraitində miqrasiya və sosial mobillik məsələləri, sosial ədalət məsələləri ilə sıx bağlıdır. Heç kimə sirr deyil ki, bir çox emiqrantlar öz doğma yurdlarından məcburi köçürülmənin, müharibələrin, münaqişələrin qurbanı, az da olsa təbii fəlakətlərin, o cümlədən zəlzələlərin, daşqınların və digər təbii fəlakətlərin qurbanı olurlar. İstənilən halda məcburi köçkünlərin hər biri nəinki yeni yaşayış şəraitini yaxşılaşdırmağa, həm də inkişaf üçün lazımi şəraitin olduğu əvvəlki yerlərinə qayıtmağa çalışır.

İllərdir ki, sosial vəziyyətin sabitləşmədiyi, müxtəlif etnik qruplar arasında toqquşmaların olduğu, hakim qrupların, yaxud hansısa üçüncü qüvvənin maraqları naminə xarici siyasi qüvvələrin stimullaşdırdığı ölkələrdə xüsusilə çətin vəziyyət yaranır. Bu mənada Azərbaycanda sayı bir milyona yaxın olan məcburi köçkünlərin ictimai həyata inteqrasiyası məsələlərinin həlli olduqca aktualdır. Bu insanların evlərini tərk etməsindən kifayət qədər vaxt keçib. Bu müddət ərzində torpaqların əsl sahiblərinə, yəni Azərbaycana qaytarılması ilə bağlı əlamətdar hadisələr baş verdi. Bu, ölkə prezidentinin rəhbərliyi altında Azərbaycan ordusunun rəşadətli səyləri, xalqın fəal və hərtərəfli dəstəyi ilə baş verib. SSRİ-nin süqutundan sonra keçid dövründən çıxan Azərbaycan istər ölkə daxilində, istərsə də xaricdə əsaslı şəkildə balanslaşdırılmış sosial-iqtisadi siyasət əsasında əhalinin həyat səviyyəsinin yüksəldilməsində, siyasi vəziyyətin sabitləşməsində, region ölkələri ilə mehriban qonşuluq münasibətlərinin qurulmasında müəyyən uğurlara nail olmuşdur. Lakin qonşu Ermənistan hələ də revanşist maraq və niyyətlərlə yaşadığından, Azərbaycanın tam mərkəzində, Qarabağda yerləşən erməni əhalisinin anklavına fəal təsir göstərdiyindən məsələni, hələ ki, tam həll etmək mümkün olmayıb. Buna baxmayaraq, dövlət məcburi köçkünlərin öz əvvəlki yaşayış yerlərinə reinteqrasiyası, azad edilmiş rayonların bütövlükdə ölkənin inkişaf səviyyəsinə, hətta daha yüksək səviyyəyə çatdırılması istiqamətində fəal iş aparır. Bu şəraitdə ömrünün müəyyən müddətində normal inkişaf və yaşamaq imkanından məhrum olmuş əhalinin uğurlu reinteqrasiyası, onların yaşayış yerinə qaytarılması, məhz bu sahədə lazımi həyat səviyyəsinə çatması üçün ölkənin müvafiq strukturlarına xüsusi vəzifələr qoyulur.

Statistik hesablamalara əsasən göstərmək olar ki, "hal-hazırda münaqişə nəticəsində

* *Bakı Dövlət Universiteti*
*e-mail*: tterlan@yahoo.com

ölkədə 1 138 450 nəfər qaçqın və məcburi köçkün vardır. Onlardan 350 min nəfər Ermənistandan qovulmuş azərbaycanlı qaçqınlardır. Ermənistan silahlı qüvvələrinin 1988-1993-cü illərdə ölkəmizə hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağdan, eləcə də ona bitişik olan 7 rayondan olan yaşayış məntəqələrindən zorla qovulmuş məcburi köçkünlərin sayı isə 788 950 nəfər təşkil edir" (13). Cəmiyyətdə yaranmış sosial-iqtisadi, siyasi və mədəni-mənəvi duruma əsaslı şəkildə təsir edən bu hal dövlət qarşısında öz həllini gözləyən vacib məsələləri qoymuşdur.

Miqrasiya problemləri bütün dünyada tədqiqatçıların və dövlət qurumlarının diqqət mərkəzindədir. Bu, son illərdə miqrasiyanın müxtəlif səbəblərdən dəfələrlə artmasından irəli gəlir. Hər bir ölkə hər hansı səbəbdən yaşayış yerini dəyişmiş insanların normal yaşaması üçün bütün lazımi şəraitlə yeni yerdə təmin olunmasında maraqlıdır [18; 3]. Məhz buna görə də, Azərbaycanda Dağlıq Qarabağ münaqişəsinin başlaması ilə ilk növbədə münaqişənin həllinə lazımi diqqət yetirildi, digər tərəfdən nəhəng insan kütləsini az-çox normal həyat şəraiti ilə təmin etmək lazım idi. Bu baxımdan qeyd etmək lazımdır ki, beynəlxalq strukturlar da məcburi köçkünlərin həyat şəraitinin və fəaliyyətinin öyrənilməsinə hər cür köməklik göstərmiş, bu insanların həyat şəraitinin yaxşılaşdırılması üçün müxtəlif proqramlar və yol xəritələri təklif etmişlər [5; 8]. Odur ki, tədqiqatın dərəcəsindən danışarkən, problemin həllinə kömək etmək üçün müxtəlif və kifayət qədər çoxsaylı tövsiyələr nəşr etdirən bu təşkilatların əhəmiyyətini və rolunu qeyd etmək lazımdır.

Bundan əlavə, məcburi köçkünlərin yenidən adaptasiyası və inteqrasiyası məsələləri ayrı-ayrı tədqiqatçıların diqqət mərkəzindədir [9; 15]. Son vaxtlar respublikada yaradılmış, bir çox sahələrdən olan mütəxəssislərin çalışdığı "Sosial Tədqiqatlar Mərkəzi" tərəfindən cəmiyyətin sosial həyatı, sosial münasibətlər, sosial siyasətin əsas prioritetləri ilə bağlı xeyli işlər görülür [7]. Qeyd edək ki, universitetlərdə bu mövzuda fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün də dissertasiyalar yazılır, müxtəlif məqalələr dərc olunur [4; 5]. Bununla əlaqədar problem yenə də aktual olaraq qalır ki, onun araşdırılmasının məqsədəuyğun olduğunu qeyd etməliyik. İlk növbədə ümumi istiqamətlər təyin edilsə də, bunların realizə edilməsi məsələsi hər biri ayrıca götürülmüş halda konkret yanaşmanı tələb edir. Tədqiqatçılar, idarəçilik strukturlarının nümayəndələri ictimai rəydə formalaşmış stereotipləri öyrənib bunların köklərini təyin etməli, öz fəaliyyətində nəzərə almalıdırlar.

Qərb alimləri tərəfindən aparılan tədqiqatlar göstərir ki, "qaçqınların və məcburi köçkünlərin münaqişədən sonra öz evlərinə qaytarılması üçün milli hakimiyyət orqanları tərəfindən beynəlxalq dəstəklə həyata keçirilən proqramlar tez-tez həddən artıq çox insanı həyati perspektivsiz qoyur. Tədbirlər tez-tez üç səbəbə görə qeyri-adekvatdır: geri qayıdanlar üçün gələcək yaratmaq ehtiyacının onların əvvəlki həyatlarına qaytarılması ilə təmin edildiyinə dair geniş yayılmış, lakin qüsurlu fərziyyə; icraedici orqanlar tərəfindən bunlarla uzunmüddətli əlaqənin olmaması; və bir çox qaçqın və məcburi köçkün şəhər ərazilərinə qayıtdığı halda kənd yerlərinin reinteqrasiyasına diqqət yetirilir" [17].

Vurğulanır ki, "müharibədən zərər çəkmiş cəmiyyətlərdə sülhün və yenidən qurulmanın məcburi köçkünlərin səmərəli reinteqrasiyasından asılı olduğunu dərk etdikdən sonra daxili köçkünlük məsələsi də daha qabarıq şəkildə aktuallaşdı. Mozambik, Anqola və Liberiya kimi vətəndaş müharibəsi nəticəsində viran qalmış ölkələrin bir çoxu əhalisinin üçdə birindən dörddə üçə qədəri zorla yerlərindən didərgin salınmışdı. Beləliklə, məcburi köçkünlərin qayıdışı və reinteqrasiyasını nəzərə almadan yenidənqurma və inkişafdan danışmaq mümkünsüz oldu" [1].

Məqaləni yazarkən biz statistikaya, beynəlxalq strukturların, eləcə də ayrı-ayrı müəlliflərin araşdırmalarına, problemin hüquqi və siyasi tərəfini xarakterizə edən sənədlərə müraciət etdik.

### Qarabağa, Şərqi Zəngəzura və Qərbi Azərbaycana reinteqrasiya siyasətinin başlıca istiqamətləri

Reinteqrasiya prosesi, yəni məcburi köçkünlərin öz əvvəlki yaşayış yerlərinə qaytarılması ilə bağlı qəbul edilmiş sənədlərə əsasən, burada öz həllini bir çox məsələlər tapmalıdır. Onlar ilk növbədə inteqrasiya anlayışının tərifi ilə bağlıdır. Məcburi köçkünlərin inteqrasiyası müxtəlif xarakterli ola bilər. Hər şey həmin şəxsin hansı statusda məcburi miqrant olmasından asılıdır. Həm də onun indiki vəziyyətini, yəni yaşayış səviyyəsini, ailə vəziyyətini və s. nəzərə almaq lazımdır. Bundan çıxış edərək məcburi köçkünlərin Azərbaycanın sosial həyatına inteqrasiyası ilə bağlı bir sıra məsələlər həll edilməlidir. Bunlar mənzil fondunun təmin edilməsi, mövcud reallıqların və çətinliklərin nəzərə alınması, təhsil almaq üçün müasir Azərbaycanda təhsil konsepsiyasına uyğun təklif və şərtlər nəzərə alınmaqla şəraitin yaxşılaşdırılması, Azərbaycan məcburi köçkünlər üçün, nəhayət, əmək bazarına daxil olmaq imkanlarının genişləndirilməsi kimi sahələrdə inkişaf etdirilməlidir. Məcburi köçkünlərin ölkənin mənəvi həyatına mədəni inteqrasiya potensialının artırılması da nəzərə alınmalıdır.

İnteqrasiyaya ehtiyacı olan iki fərqli insan axını nəzərə alınmalıdır. Bu, Qərbi Azərbaycan ərazisindən (indiki Ermənistan) qaçqın axınıdır ki, onun həll edilməli olan öz problemləri var, ilk növbədə öz yaşadığı ərazilərinə qayıdışla bağlı olanlar. Bu günlərdə ölkədə vaxtilə Qərbi Azərbaycan ərazisində yaşamış bütün azərbaycanlıları birləşdirən xüsusi qurum yaradılıb, öz doğma torpaqlarına qayıtmaq, bir vaxtlar bu torpaqlarda yaşayan insanların bütün hüquqlarının bərpası ilə bağlı xüsusi yol xəritəsi həyata keçirilir. O cümlədən itirilmiş əmlakı qaytarmaq, toponimləri, yəni coğrafi adları bərpa etmək, bütün hüquqlarını təmin etmək və s. kimi məqsədlər nəzərdə tutulub.

Qərbi Azərbaycan icması Ermənistanın baş naziri Nikol Paşinyana məktub göndərib: “Bildiyiniz kimi, Qərbi Azərbaycan İcması beynəlxalq hüquqa əsaslanaraq təhlükəsiz və ləyaqətli qayıdış konsepsiyasını işləyib hazırlayıb. İcma sülh yolu ilə qayıdış prosesinə nail olmaq əzmindədir və onu həyata keçirmək üçün dialoq yolunu seçib. Bu müstəvidə İcma siyasi və diplomatik kanallar vasitəsilə beynəlxalq təşkilatlara və müvafiq dövlətlərə öz mövqeyini izah edir. Şübhəsiz ki, siyasi müstəvidə həyata keçirilən qayıdış prosesinin mühüm hissəsi Ermənistan hakimiyyəti ilə dialoq olmalıdır. Erməni tərəfinin bizə qarşı törətdiyi böyük fəlakətləri tarixi yaddaşımızda saxlayaraq, sülhün və inkişafın yolunun dialoq və barışıqdan keçdiyini anlayırıq. Bu niyyətlə İcmamız Ermənistan Respublikasının baş naziri Nikol Paşinyana məktub göndərib və o, onu geri qayıtma məsələsi ilə bağlı dialoqa başlamağa çağırıb”, - məktubda deyilir [11].

Bütövlükdə, ölkəmizdə reinteqrasiya məsələləri eyni vaxtda bir neçə istiqamətdə həll olunub: bu, azərbaycanlıların Ermənistandakı əzəli yaşayış yerlərinə qayıtması, məcburi köçkünlərin erməni təcavüzündən azad edilmiş əvvəlki yaşayış yerlərinə köçməsidir. Reinteqrasiyadan danışarkən, məsələn, müəllim, həkim, evdar qadın, məktəbli, fermer və s. statusunda təkcə əvvəlki yaşayış yerlərinə qayıtmağı nəzərdə tutulmur. Problemə daha dərindən baxmalıyıq. Azərbaycanda evlərini, işini, qohumlarını, dostlarını itirmiş məcburi köçkünlərin həyatını yüngülləşdirmək üçün kifayət qədər geniş işlər görülüb. Burada artıq cəmiyyətə inteqrasiya nəzərdə tutulurdu, amma yeni səviyyədə - məcburi köçkünlər olaraq. İş müharibə şəraitində aparıldığı üçün hökumət imkanları kifayət qədər məhdud idi. Buna baxmayaraq, Azərbaycanda məcburi köçkünlərlə iş oxşar vəziyyətlə üzləşmiş digər ölkələrlə müqayisədə daha yüksək səviyyədə aparılıb, bunu faktlar və rəqəmlər sübut edir.

### Məcburi köçkünlərin müasir demoqrafik strukturu və sosial durumu

Məlum olduğu kimi, “2001-2014-cü illər ərzində Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına 2,8 milyon kvadrat metr sahəsi olan, bütün sosial-

texniki infrastruktura malik 89 müasir qəsəbə salınmış, 46 min ailə 230 min nəfərədək qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır" [14, s.13].

Məcburi köçkünlərin sosial-demoqrafik strukturu illər ərzində əhəmiyyətli dərəcədə dəyişmişdir. Əvvəla, onların sayı artıb, nəsillərarası proseslərdə yerdəyişmə baş verib. Bu, yaşlı miqrant nəslinin xeyli qocalması, eyni zamanda müxtəlif şəraitdə, ilk növbədə, sosial-iqtisadi şəraitdə böyüyən yeni gənc nəsillərin meydana çıxması ilə ifadə olunur. Məlumdur ki, köçkünlərin ilk nəsli çadır şəhərciklərində yaşamış və yalnız dövlət tərəfindən həyata keçirilən tədbirlər sayəsində onların yaşayış üçün əlverişli yerlərə köçməsi mümkün olmuşdur. Bunlar yeni şəhərciklər, şəhərətrafı qəsəbələrdir, bildiyiniz kimi, son vaxtlar işğaldan azad edilmiş ərazilərdə də artıq qəsəbələr salınır. Ölkə prezidenti işğaldan azad edilmiş bütün ərazilərin abadlaşdırıldığı üçün onların reinteqrasiyası proqramını təsdiq etdi. Xüsusilə, ilk növbədə məskunlaşacaq ərazilər Laçın rayonu, Zəngilan rayonu, ümumiyyətlə, Şərqi Zəngəzur ərazisidir.

Ümumiyyətlə, məcburi köçkünlərin demoqrafik strukturu bu gün Azərbaycan cəmiyyətinə xas olan sosial-demoqrafik proseslərin inkişafının xarakterik xüsusiyyətlərini əks etdirir. Bu, ailədə uşaqların sayının azalması, həm oğlanların, həm də qızların nikah yaşının artması, yüksək sosial mobillik, yüksək peşəkar vəzifələrdə işləmək, o cümlədən xaricdə yaxşı təhsil almaq istəyidir. Qeyd etmək lazımdır ki, qızlar da yaxşı təhsil almağa çalışırlar. Köçürülmə illərində bir çox köçkünlər yeni yaşayış şəraitinə uyğunlaşaraq fərqli bir ixtisas aldılar, yəni peşələrini dəyişdilər. Bu, ölkənin keçid dövrünü yaşadığı, hər kəsi öz ixtisası üzrə işlə təmin etmək imkanının olmaması ilə bağlı idi. Ona görə də, məcburi köçkün həyatını minimum səviyyədə təmin etmək üçün istənilən işə getməli oldu.

Eyni zamanda qeyd etmək lazımdır ki, məcburi köçkünlərin başına gətirilən sınaqlar onları daha güclü və dözümlü edib. Onlar yeni yerdə təşəbbüskarlıq, əzmkarlıq nümayiş etdirdilər, həm həmyerlilər, həm də qohumlar bir-birinə dəstək oldular. Bütün bunlar sağ qalmağa, güclənməyə, cəmiyyətdə layiqli yer tutmağa onlara kömək etdi.

Məcburi köçkünlər üçün əlverişli həyat şəraitinin yaradılması və sonradan reinteqrasiyası üçün müvafiq proqramlar qəbul edilmiş, icrası müxtəlif nazirlik və idarələrə həvalə edilmişdir. İlk növbədə, bu proqramların həyata keçirilməsi üçün müvafiq hüquqi bazanın yaradılması lazım idi. Onlar geniş və mürəkkəb xarakter daşıyırdı, bu, təkcə insanlara çətin anlarında kömək etmək deyil, həm də qonşu Ermənistanın Azərbaycana təcavüzü nəticəsində bu kütləvi məcburi köçün bütün hallarını dünya ictimaiyyətinin diqqətinə çatdırmaq demək idi. İlk növbədə, hər bir miqrantın minimum həyat səviyyəsinə nail olunması üçün müvafiq sosial-iqtisadi şəraitin yaradılması, onların təhsil, tibbi xidmət, işlə təmin olunması, o cümlədən müvafiq ictimai rəyin, milli şüurun formalaşdırılması, ictimai cəhətdən dəstək olunması və s. nəzərdə tutulurdu.

Ailələrin qovuşması, sağlamlığını itirmiş insanların, kimsəsiz uşaq və yeniyetmələrin, tənha və qocaların müvafiq maddi-məişət şəraitinin təmin edilməsi istiqamətində xeyli işlər görülüb. Məlum olduğu kimi, bu istiqamətdə bir çox idarələr, ilk növbədə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi fəaliyyət göstərmişdir və göstərməkdədir. Onların hamısı qeydiyyata alındı, lazımi müavinətlə, mənzillə, işlə təmin olundu və s. Bu gün onların reinteqrasiyası, yəni işğaldan azad edilmiş torpaqlara qayıtması istiqamətində işlər aparılır. Bu, böyük maddi xərclərlə əlaqəli olduqca zəhmətli bir prosesdir. Çünki bu ərazilər dağıdılıb və demək olar ki, tamamilə minalanıb.

### Reinteqrasiyanın iqtisadi tərəfi

Bildiyimiz kimi, "növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafında müəyyən olunmuş beş milli prioritetinin qorunması və reallaşdırılmasına xidmət etmək Azərbaycanda yaşayan hər bir şəxsin vətəndaşlıq vəzifəsidir. Təsdiq olunmuş sənəd dövlətin növbəti 5 strateji prioritetlərini müəyyən edib:

- Dayanıqlı artan rəqabət qabiliyyətli iqtisadiyyat;
- Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
- Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
- İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
- Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi [9].

Bu işləri həyata keçirmək üçün müvafiq qurumlarla yanaşı məcburi köçkünlərin reinteqrasiyası ilə bağlı Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə qərargahı yaradılmışdır ki, bu qərargah birbaşa bunlarla məşğul olacaqdır. Bu günə qədər bütün məcburi köçkünlər bu və ya digər dərəcədə firavan həyat sürürlər. Lakin onların ilkin yaşayış yerlərini itirməsi, əmlakından məhrum olması, bir çoxlarının qohum və dostlarını itirməsi, işlərini, gələcək həyat planlarını məhv etməsi fonunda başa düşmək lazımdır. İlk növbədə onların itirilmiş hüquqlarını, insan ləyaqətini bərpa etmək üçün reinteqrasiyaya ehtiyac var. Və sonra unutmaq olmaz ki, işğaldan azad edilmiş ərazilərdə həyatın sosial-iqtisadi bərpası prosesinin özü elm və texnikanın ən son nailiyyətləri əsasında həyata keçirilir. Ağıllı kəndlər, ağıllı şəhərlər salınacaq, özünəməxsus sosial-iqtisadi inkişafı olan xüsusi ərazilər yaradılacaq.

Dövlət vəsaitləri ilə yanaşı, xarici investisiyalar və yerli iş adamlarının şəxsi investisiyaları da cəlb olunacaq. Rayonların işğaldan azad edilmiş şəhər və kəndlərində yeni iş yerlərinin açılması, tikiş, toxuculuq, çörək sexlərinin açılması, dəyirman tikintisi, torpaq sahələrinin ayrılması və s. üzrə iş gedir. Qəsəbələrdə, o cümlədən məcburi köçkünlərin sıx yerləşdiyi şəhər və rayonlarda istehsalat sahələrində kiçik sexlərin, filialların, digər gəlirli iş yerlərinin təşkili, yeni peşələrin hazırlanması məsələlərinin həlli həyata keçirilir. İkinci Qarabağ müharibəsindən sonrakı dövrdə qısa bir zamanda xüsusi proqramlar qəbul olunub və həyata keçirilir. Biz, ardıcıl olaraq yeni hava limanları, yolların (o cümlədən çətin şəraitdə – dağ əraziləri olduğu üçün), bütün növ digər kommunikasiyalarla bağlı işlərin həyata keçirilməsinin şahidiyik. Azad edilmiş ərazilərdə elə bir şərait yaradılır ki, sosial-iqtisadi baxımından hər bir vətəndaş, iş adamı və yaxud sakin, turist və yaxud ailə üzvü kimi buraya ziyarət edə bilər, burada yaşayıb yarada bilər.

### Reinteqrasiyanın mənəvi amilləri

Məcburi köçkünlərin gündəlik həyatın, sosial həyatın bütün sahələri, o cümlədən təhsilin, asudə vaxtın, mənəvi tələbatların ödənilməsinin mümkünlüyünün təşkili bu kateqoriyadan olan insanların mənəvi həyatının fəallaşmasına şərait yaratmışdır. Uşaqların məktəbdə təhsilinin təşkili, ali məktəbə daxil olmaq üçün əlverişli şərait, işə qəbul zamanı müəyyən güzəştlər, miqrantların həyatının müxtəlif sahələri ilə bağlı sosial xidmətlərin inkişafı üçün müxtəlif proqram və layihələr onların sosial strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Onlar bir çox gənc mütəxəssis kadrlarının bölgələrin idarəetmə sistemində, bütövlükdə ölkənin müxtəlif səviyyələrində rəhbər vəzifələr tutmağa başlaması ilə ifadə edildi. Məktəb və universitetlərdə, eləcə də müxtəlif qurumlarda çalışan bir qrup mütəxəssis formalaşıb. İncəsənət və mədəniyyət sahəsində də bir qrup istedadlı müğənni, şair, yazıçı, rəssam, bəstəkar, heykəltəraş və s. formalaşmışdır.

Bu fikri təsdiqləmək üçün STM tərəfindən keçirilən sorğunun nəticələrinə müraciət edək: "Müsahibələr nəticəsində müəyyən olundu ki, respondentlər geri qayıtmamalarının əsas səbəbi kimi iş, təhsil və xidmətlərlə bağlı köçdükləri ərazidə imkanların zəif olmasını göstərirlər. "Gələcəkdə öz regionunuza (doğulub böyüdüyünüz kənd/şəhər/qəsəbəyə) geri qayıtmaq istərdinizmi?" sualına respondentlərin 45,7%-i müsbət cavab verib. Lakin geri qayıtmaq istəyən respondentlər, iş və yaşayış imkanlarının genişlənəcəyi təqdirdə bunun mümkün olacağını bildiriblər. Yəni mövcud durumda geri qayıtmağa motiv demək olar ki, yoxdur" [18, s. 16]. Məsələnin bu tərəfi dövlət proqramlarında nəzərdə tutulur. "Böyük

qayıdış" nəticəsində reinteqrasiya bütün xalqımızın həyat tərzi, sosial strukturu, amalı, vahid milli düşüncə və təsəvvürlər əsasında inkişaf edəcək. Dünyaya, öz həyatına münasibət, ümumbəşəri və milli dəyərlər əsasında formalaşdığı üçün cəmiyyətdə artıq qaçqın və ya məcburi köçkün anlayışlarını vahid vətəndaş cəmiyyəti çərçivəsində hüquqi dövlət ətrafında birləşən, azad düşüncəyə və vətəndaş məsuliyyətinə malik olan insanlar anlayışı əvəz edəcək.

**Nəticə**

Yekun olaraq qeyd etmək olar ki, son onilliklər ərzində ölkəmizdə məcburi köçkünlərin ümumi sosial inkişaf proseslərinə inteqrasiyası istiqamətində mühüm işlər görülüb. Bu, həyat səviyyəsinin yüksəlməsində, savadlı, peşəkar təlim keçmiş yeni nəsillərin yetişməsində ifadə olunur. Yaşayış şəraiti yaxşılaşdırılıb, o cümlədən yeni qəsəbələr salınıb, infrastruktur yaradılıb, bu kateqoriyadan olan insanların həyatının bütün sahələrinin təşkili üçün qanunvericilik bazası formalaşdırılıb. Eyni zamanda, hər bir köçkünün həyat şəraitinin dəyişməsi onun özünüdərkinə, həyat məqsədlərinə, ailə münasibətlərinə, sosial mühitinə, mənəvi tələbatlarına təsir edib. Bütün bunlar məcburi köçkünlərin reinteqrasiyası, yəni əvvəlki yaşayış yerlərinə qayıtması üçün yeni istiqamətlər çərçivəsində onların həm sosial, həm də mənəvi vəziyyətinin daim təhlilini və qiymətləndirilməsini tələb edir. Məcburi köçkünlərin inteqrasiyası məsələləri öz aktuallığına görə mütəxəssislərin daimi diqqətini tələb edir. Xüsusilə, indiki reinteqrasiya şəraitində ölkəmizdəki çoxsaylı məcburi köçkün ordusu öz doğma yaşayış yerlərinə qayıtmaq üçün yeni şəraitə hazır olmalıdır. Bu baxımından nəzərə almaq lazımdır ki, son 30 il ərzində bu insanlar müxtəlif şəraitdə yaşayıblar. Qonşu Ermənistanla hərbi qarşıdurma şəraitində ölkənin bu qrup insanlara kömək etmək imkanları məhdud idi. Eyni zamanda, 30 il ərzində məcburi köçkünlərin həyat səviyyəsinin yüksəldilməsi, məişətin təşkili, həyatın müasir tələblərinə cavab verən yeni nəsillərin formalaşdırılması istiqamətində xeyli işlər görülüb. Təhsilin səviyyəsinin yüksəldilməsində, hər bir miqrantın uğurlu inkişafı üçün sağlam sosial şəraitin yaradılmasında müəyyən uğurlar əldə edilmişdir. Müasir miqrantların sosial strukturunun keyfiyyət tərkibinin təhlili onların reinteqrasiyası üçün zəruri istiqamətləri müəyyən etməyə kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri. Analitik hesabat (sosioloji sorğu və elmi tədqiqatın nəticələri əsasında). Bakı, 2020, 72 s. (https://stm.az/az/page/39/azerbaycan-barometri)
2. V Bakı Beynəlxalq Humanitar Forumun "dəyirmi masa"larından biri də qaçqın və məcburi köçkünlərin problemlərinə həsr olunub. (http://idp.gov.az/az/news/485)
3. "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə. Bakı şəhəri, 10 iyul 2021-ci il (https://nk.gov.az/az/document/5457/print/)
4. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanı zəfərə aparan yol. Bakı: Qanun, 2021, 232 s.
5. Əliyev Ü. Icma əsaslı sosial reabilitasiya: mövcud vəziyyət və prespektivlər // Sosial həyat // Aylıq sosial jurnal, 2016, №4, s. 50-53.
6. Hüseynov S. İqtisadi tərəqqi ölkənin inkişafını və xalqın rifahını təmin edir (https://www.yeniazerbaycan.com/SonXeber_e78302_az.html)
7. İkinci Qarabağ müharibəsinin qondarma rejim və Ermənistan üçün nəticələri // (https://stm.az/az/news/1076/)

8. "İyirmi il məcburi köçkünmü olar?" Azərbaycanda məcburi köçkünlərə və yerli əhalinin ehtiyaclarının və məcburi köçkünlük probleminə olan münasibətin müqayisəli təhlili. Bakı, dekabr, 2011-ci il (https://www.brookings.edu/wp-content)
9. Jerald Paçu, Sinişa Milatoviç. Münaqişənin təsirinə məruz qalan mühitdə bizneslər tərəfindən insan hüquqları üzrə dərin ekspertiza. Bələdçi. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (2022). Münaqişənin təsirinə məruz qalan mühitdə bizneslər tərəfindən insan hüquqlar üzrə dərin ekspertiza; Nyu York, Amerika Birləşmiş Ştatları.
10. Qaçqınların Azərbaycanda inteqrasiyası siyasəti üzrə yol xəritəsinə dair tövsiyələr. Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz tərəfindən hazırlanıb – Avstriya Respublikası, Vyana şəhəri. Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz. Mart 2018-ci il (https://www.icmpd.org/)
11. Qərbi Azərbaycan icması Ermənistanın baş naziri Nikol Paşinyana məktub göndərib // (https://minval.az/news/12431077)
12. Qarabağ və Şərqi Zəngəzurun İqtisad Potensialının Sektoral Qiymətləndirilməsi // (https://conferences.az/uploads)
13. Məmmədov R.F. Süleymanlı S.A. Abbasov. X.R. Azərbaycanlı qaçqm və məcburi köçkünlərin problemləri beynəlxalq təşkilatlar müstəvisində. Bakı, Səda Nəşriyyatı, 2016, 232 s.
14. Qaçqınlar və məcburi köçkünlər (https://azerbaijan.az/related-information/115)
15. Vahid Hacıyev: "Şərqi Zəngəzur və Qarabağda 5 istiqamətdə layihələrin həyata keçirilməsi mümkündür" (https://report.az/daxili-siyaset
16. Тагиева Т. Научно-теоретические подходы к проблеме миграции в современной науке. Alma mater (Вестник высшей школы) №1 (январь) 2021, с. 115-120.
17. New Challenges for Refugee Policy: Internally Displaced Persons. Roberta Cohen Thursday, April 1, 1999. (https://www.brookings.edu/)
18. Refugees and IDPs after Conflict. Thursday, April 7, 2011 / BY: Patricia Weiss Fagan (https://www.usip.org/publications/2011/04)

***Резюме***

***Тарлан Тагиева***

***Интеграция вынужденных переселенцев в общество***

В силу своей актуальности вопросы интеграции внутренне перемещенных лиц требуют постоянного внимания специалистов. Тем более, что в нынешних условиях реинтеграции многочисленная армия вынужденных переселенцев в нашей стране должна быть готова к новым условиям возвращения в родные места проживания. В связи с этим следует учитывать, что эти люди жили в разных условиях в течение последних 30 лет. В условиях военного конфликта с соседней Арменией у страны были ограниченные возможности помочь этой группе людей. Вместе с тем за 30 лет проделана большая работа в направлении повышения уровня жизни вынужденных переселенцев, организации их хозяйства и быта, формирования новых поколений, отвечающих современным требованиям жизни. Достигнуты определенные успехи в повышении уровня образования и создании здоровых социальных условий для успешного развития каждого мигранта. Анализ качественного состава социальной структуры современных мигрантов поможет определить необходимые направления их последующей реинтеграции. Мировой опыт показывает, что миграционные процессы, независимо от причины, фундаментально затрагивают все сферы развития общества и требуют своего решения. Уже сформирована специальная концепция, на основе которой предпринимаются практические шаги, и каждое государство старается извлечь выгоду из этого подхода, включающего в себя универсальный опыт. Конечно, социально-политическая и экономическая ситуация иная. Реализованная тактика, реальные меры должны послужить тому, чтобы интеграция в любом случае была успешной.

Главными проблемами здесь являются согласование потребностей народа и возможностей государства, достижение необходимых позитивных изменений в нашей социальной структуре за счет эффективного использования существующего человеческого и социального капитала в рамках гражданского общества с точки зрения государства.

Все это требует постоянного анализа и оценки как социального, так и морального положения

вынужденных переселенцев в рамках новых направлений их реинтеграции, то есть возвращения в прежние места проживания.

***Ключевые слова:*** *внутренне перемещенные лица, новое поселение, реинтеграция, социально-политические, экономические и нравственные факторы*

***Summary***

***Tarlan Tagieva***

***Integration of Displaced People into society***

Due to its relevance, issues of integration of internally displaced persons require constant attention of specialists. Moreover, in the current conditions of reintegration, the large army of internally displaced persons in our country must be prepared for new conditions of returning to their native places of residence. In this regard, it should be taken into account that these people have lived in different conditions over the past 30 years. Given the military conflict with neighboring Armenia, the country had limited opportunities to help this group of people. At the same time, over 30 years, a lot of work has been done to improve the standard of living of forced migrants, organize their economy and life, and form new generations that meet modern living requirements. Some success has been achieved in raising the level of education and creating healthy social conditions for the successful development of every migrant. An analysis of the qualitative composition of the social structure of modern migrants will help determine the necessary directions for their subsequent reintegration.

World experience shows that migration processes, regardless of the cause, fundamentally affect all spheres of social development and require their solution. A special concept has already been formed, on the basis of which practical steps are being taken, and each state is trying to benefit from this approach, which includes universal experience. Of course, the socio-political and economic situation is different. Implemented tactics and real measures should ensure that integration is successful in any case. The main problems here are the coordination of the needs of the people and the capabilities of the state, achieving the necessary positive changes in our social structure through the effective use of existing human and social capital within civil society from the point of view of the state. All this requires constant analysis and assessment of both the social and moral situation of forced migrants within the framework of new directions for their reintegration, that is, return to their previous places of residence.

***Key words:*** *internally displaced persons, new settlement, reintegration, socio-political, economic and moral factors*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Məmmədov Əziz Bəşir oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.